Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Uşaqları sevindirən, böyükləri düşündürən – Mark Tven

**Mark Tvenin 185 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2020**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Uşaqları sevindirən, böyükləri düşündürən – Mark Tven:** Mark Tvenin 185 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020.- 31 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

Mark Tven dövrün ən məhşur realist yazarı olmaqla bərabər Amerika ədəbiyyatının əvəzedilməz yumoristi və satiristi idi. Onun əsərləri dünya oxucularının ən çox müraciət etdiyi əsərlər sırasına daxildir. Onun oynaq və qeyzli şəkildə qurulmuş kinayəli cümlələrini demək olar ki, bütün əsərlərində, mühazirələrində və esselərində görə bilərik. Görkəmli yazıçının kinayəli satirası istər ABŞ siyasi həyatını, istərsə də cəmiyyətin əxlaq qaydalarını insanların özünə güzgü kimi göstərirdi. Tven hər kəsi qara yumoru ilə tənqid edirdi: rüşvətxor dövlət işçilərini, irqçiləri, müstəmləkəçi siyasətçiləri, xürafatçı dindarları, kilsə mövhumatını, dini və milli ehkamlardan törəyən əxlaq qaydalarını və bunların fonunda qadınların cəmiyyətdən sıxışdırılıb təcrid olunmalarını, fiziki və mənəvi güclərinin heçə sayılmasını. Bütün müasir Amerika ədəbiyyatı Mark Tvenin "Haklberri Finin Macəraları" adlı bir kitabından başlayır. Yazıçının "Tom Soyerin macəraları" (1876), "Şahzadə və dilənçi" (1882), "Missisipidə keçən həyat" (1883), "Hekayələr toplusu", "Heklberri Finnin sərgüzəştləri" (1884), "Qoruyucu mələyə məktub" (1887), "Fərsiz Vilson" (1894), "Janna Dark" (1896) əsərləri onu ən çox sevilən dünya şöhrətli bir yazıçıya çevirmişdir. Bu il dünyanın hər yerində ədəbiyyat həvəskarları Mark Tvenin 185 illiyini qeyd etməyə hazırlaşır. Bu münasibətlə ölkəmizdə yazıçıya həsr olunmuş tədbirlərin keçirilməsi nəzərdə tutulur. Yubileylə bağlı kitabxanamız Mark Tvenə həsr olunmuş vəsaiti sizə təqdim edir. Vəsait iki hissədən ibarətdir. I hissədə Mark Tvenin həyat və yaradıcılıq yolu işıqlandırılır. İkinci hissədə isə kitabxanalarda keçiriləcək tədbirlər haqqında məlumat verilir.

## Həyat və yaradıcılığı

Dünya oxucularının böyük kütləsini öz əsərləri ətrafında toplamaq hər bir yazıçıya qismət olmur. Buna nail olmaq üçün hərtərəfli dünyagörüşünə, kifayət qədər savada nail olmaq əsas şərtlərdən biridir. Belə yazıçılardan biri Amerikanın görkəmli yazıçısı Səmuel Lənqhorn Klemens – Mark Tvendir. Ümumiyyətlə, Amerika Birləşmiş Ştatlarının ədəbiyyatını o, olmadan təsəvvür etmək mümkün deyil. Mark Tven ABŞ ədəbiyyatının gələcək inkişafının strategiyasını müəyyənləşdirən bir sənətkardır. Mark Tven 30 noyabr 1835-ci ildə ABŞ-ın Missouri əyalətinin Florida bölgəsində dünyaya gəlmişdir. O, yeddi uşaqlı bir ailənin altıncı uşağı və sağ qalan üç qardaşdan biri idi. Ailəsi, Mark dörd yaşında ikən Missisippi Çayı sahilindəki Hannibala şəhərinə köçməli olur. Mark Tven sonralar yaratdığı məşhur romanları bu bölgədəki müşahidələrinə söykənərək yazmışdı. O, biznesmenlik və vəkillik edən atasını on bir yaşında ikən sətəlcəmdən itirincə təhsilini atıb, köməkçi olaraq bir mətbəədə işə başladı. 1851-ci ildə böyük qardaşı Orionun sahibi olduğu yerli qəzet redaksiyasında işləyir. On səkkiz yaşında dünyanı kəşf etmək arzusunda olan gənc Mark ABŞ-ın müxtəlif əyalətlərini gəzməyə başlamış, eyni zamanda müxtəlif mətbəələrdə işləmişdi. Dörd il sonra Missouriyə qayıtmış və Missisippi çayındakı buxarlı gəmilərdə kapitanlıq etmək istəmişdi. Kapitanlıq imtahanlarına hazırlıq üçün səylə çalışırdı. Çayın hər yerini öyrənməsi yazıçının iki ilini almışdır. Ona bu işdə Henri adındakı qardaşı yoldaşlıq edirdi. Qardaşını itirən Mark Tven 24 yaşında kapitanlıq səlahiyyətini öz üzərinə götürdü. Sonralar mədənçilik işi müvəffəqiyyətsizliklə nəticələnən yazıçı məqalələr yazaraq müxtəlif əyalətləri gəzməyə başladı. “Mark Tven” adıyla imzaladığı ilk məqaləsi “Carsondan

Məktub" adlı məqaləsi idi. Yazıçı 18 noyabr 1865-ci ildə "New York Saturday Pres" adlı qəzetdə nümayiş olunan "Klaravasda Tullanan Qurbağa" adlı hekayə ilə ədəbiyyata ilk addımını atdı. Yazıçının kömür şaxtası düşərgəsində mədənçilərdən dinlədiyi, yerli bir əhvalata əsaslanaraq yazdığı bu hekayəsi, 1867-ci ildə nümayiş olunan ilk kitabında da yer aldı. İki il sonra yenə yerli bir qəzetin istəyi üzərinə Aralıq dənizində bir gəmi səyahətinə çıxan yazıçı bu dövrdə qələmə aldığı yazılarını cəmləşdirib "Xarici Ölkə" adlı kitabında topladı. Beləliklə də, o öz ölkəsində çox məşhur komediya yazıçısına çevrildi. Pul qazanmaq üçün müxtəlif işlərə sərmayə qoyan Mark Tvenin cəhdləri həmişə pul itkisiylə nəticələnirdi. 1885-ci ildə qurduğu nəşriyyat isə müflisləşməsinə gətirib çıxardı. "Heklberri Finnin Macəraları" romanını nəşr edən nəşriyyat isə bu kitabla əldə etdiyi müvəffəqiyyəti bir daha əsla tuta bilmədi. 1896-ci ildə 23 yaşındakı qızı Susyun, daha sonra həyat yoldaşının ölümündən böyük sarsıntı keçirən Mark Tvenin ruhi böhranları həyatı boyunca zaman-zaman təkrar baş qaldırırdı.

Mark Tvenin M.Servantesin "Don Kixot" və C.Sviftin "Qulliverin səyahəti", D.Defonun "Robinzon Kruzo" romanları ilə tanış olması onun dünyagörüşündə əsaslı dönüş yaratmış və yazıçının bütün yaradıcılığında bu əsərlərə xas olan kəskin ictimai satira və incə yumor başlıca mövzu olmuşdur. Xüsusilə, Mark Tvenə C.Svift satira və D.Defonun macəra üslubları daha doğma görünürdü. Belə ki, bu görkəmli ingilis mütəfəkkirləri dərin məzmunlu maarifçilik ideyalarını bir tərəfdən macəra formasında, digər tərəfdən də incə yumor üslubunda ifadə etmişdir.

Tven ilk mühazirələrini 1866-cı ildən deməyə başlamışdı. Televizorun, radionun, telefonun olmadığı dövrdə yeganə əyləncə onun mühazirələrində iştirak edib, canlı dinləməkdən

ibarət idi. Tvenin öz fikirlərini komedik tərzdə çatdırması dinləyiciləri ilə canlı ünsiyyətə girişməsinə asanlıqla yol açırdı. Kitabları ilə bərabər mühazirələri də ona məhşurluq gətirirdi.

Yazıçı ömrünün son illərində müstəmləkəçiliyi, irqi düşmənçiliyi, qazanc ehtirasını, dini ikiüzlülüyü sərt bir dillə tənqid edən yazılar yazmışdır. 1909-cu ildə 29 yaşındakı kiçik qızının ölümü həyatın Mark Tvenə vurduğu son zərbə oldu. Yazıçı 1906-ci ildə yazmağa başladığı bioqrafiyasını tamamlamadan keçirdiyi ürək narahatlığı nəticəsində 21 aprel 1910-cu ildə həyatını itirdi. Mark Tven illərdir həyatla vidalaşmış olsa da, onun "Tom Soyerin macəraları" (1876), "Şahzadə və dilənçi" (1882), "Missisipidə keçən həyat" (1883), "Hekayələr toplusu", "Heklberri Finnin sərgüzəştləri" (1884), "Qoruyucu mələyə məktub" (1887), "Fərsiz Vilson" adlı əsərləri hər bir dövr üçün aktualdır və hər zaman oxucuların sevimli kitabları sırasında yer alır.

## II. Keçiriləcək yubiley tədbirləri

Mark Tven dünya ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Onun "Tom Soyerin macəraları" (1876), "Şahzadə və dilənçi" (1882), "Missisipidə keçən həyat" (1883), "Hekayələr toplusu", "Heklberri Finin sərgüzəştləri" (1884), "Qoruyucu mələyə məktub" (1887), "Konnektikutdan olan Yanki kral Arturun sarayında" (1889), "Fərsiz Vilson" (1894), "Janna Dark" (1896) adlı əsərləri dünya ədəbiyyatı inciləri arasında özünəməxsus yer tutur. Yazıçının kiçik yaşlı uşaqların həyatından bəhs edən əsərləri bütün oxucuların, o cümlədən də, kiçik yaşlı oxucuların şəxsi kitabxanalarında sevimli kitabları arasında yer alır. Belə ki, bu əsərlər hər bir dövrün azyaşlılarının böyük rəğbətini qazanmış əsərlərdir. Xüsusən də, "Tom Soyerin sərgüzəştləri", "Şahzadə və

dilənçi", "Heklberri Finnin sərgüzəştləri" kiçik yaşlı oxucularda maraq yaradır və onların dünyagörüşünün artmasına kömək edir. Mark Tven kimi bir yazıçının az yaşlılara tanıdılması kitabxanaların üzərinə böyük öhdəliklər qoyur. Bununla əlaqədar kitabxanalarda maraqlı yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmalıdır. Bu tədbirlər arasında əyani-kütləvi tədbirlər xüsusi yer tutur. Çünki alimlərin araşdırmalarına görə uşaqlar əyani şəkildə gördükləri hadisələrin təsirinə daha tez düşürlər, nəinki eşitdiklərinin. Elə bu səbəbdən də kitabxanalarda əyani kütləvi tədbirlərin keçirilməsi olduqca əhəmiyyətlidir. Belə kütləvi tədbirlərdən biri də sərgilərdir. Xüsusən də, kitab və rəsm sərgiləri ən çox sevilən tədbirlərdəndir. Onu da qeyd edək ki, tanınmış yazıçının dünyanın bir sıra ölkələrində kitabları işıq üzü görmüşdür. Görkəmli şəxsiyyətlərin Mark Tven haqqında söylədikləri kəlamları və kitablarının üz qabıqlarından təşkil olunmuş sərgini sizə təqdim edirik.

## Görkəmli şəxsiyyətlər Mark Tven haqqında

Bütün Amerika nəsri "Hekberri Finin macəraları" romanından törəmişdir.

**Ernest Heminquey,**
*Nobel mükafatı laureatı, yazıçı*

Mark Tven erkən yaradıcılığı ilə bütün ABŞ ədəbiyyatının istiqamətini dəyişmişdir! Daha çox ingilis ədəbiyyatının ənənələrinə istinad edən yazıçı ABŞ ədəbiyyatı üçün tamamilə yeni olan yumor yarada bildi. Bu, hər bir sənətkara qismət olmayan taledir.

**Zeydulla Ağayev,**
*filologiya elmləri doktoru*

Mark Tvenin nağılları özünəməxsus üslubu ilə oxucusunu vəcdə gətirir, oxuduqlarının gerçək olmadığını bilə-bilə onu gözəl sözün sehriylə bu uydurma tarixçələrə inandırır.

**Cəlil Nağıyev**

*filologiya elmlər doktoru, professor*




































Mark Tvenin əsərlərini azyaşlı uşaqlara tanıtmaq məqsədilə **kitab icmalları**nın keçirilməsi məqsədə uyğundur. Mark Tvenin əsərləri respublikamızda son illər ərzində təkrar nəşr olunmuşdur. Belə kitablardan biri "Seçilmiş əsərlər" adı altında çapdan çıxmışdır ki, həmin kitabın icmalının keçirilməsi oxucuların marağına səbəb olar. Kitab İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunub və ölkə kitabxanalarına hədiyyə edilmişdir. Kitabı 2005-ci ildə "Öndər nəşriyyat" çapdan buraxmışdır. Bu kitabda Mark Tvenin iki romanı: ***"Tom Soyerin macəraları", "Heklberri Finnin macəraları"*** əsərləri oxuculara təqdim olunur. Birinci romanın qəhrəmanı balaca Tomdur. O, Polli xalanın sözündən çıxsa da, şıltaqlıq etsə də, oxucular tərəfindən sevilir. Çünki bu oğlan bütün hərəkətlərində olduqca səmimidir. Tom hətta onu öz nəsihətləri ilə təngə gətirən Polli xalanı belə cəzalandırmaq istəyir. Tomun fikrincə, ancaq onun ölümü Polli xalanı ona nahaq yerə "əzab verdiyinə" görə peşman edə bilər. Tom dərs oxumağı sevmir. Onun özünəməxsus fantaziyalar aləmi var. O, macəra axtarır, xəzinəyə sahib olmaq istəyir. Sonda balaca Tom öz istəyinə nail olur. Mark Tven bütün əsər boyu hər bir hadisəni böyük məharətlə uşaqların nöqteyinəzərindən qələmə almış, onların düşüncə və hərəkətlərini dəqiqliklə ifadə edə bilmişdir. Elə buna görə də yazıçının bu əsərləri kiçik oxucularımızın ən çox sevdiyi və müraciət etdiyi ədəbiyyatlar arasında yer alır. Kitabda öz əksini tapan ikinci əsər isə "Heklberri Finnin macəraları" romanıdır. Burada yazıçı əsərin qəhrəmanları ilə, "Tom Soyerin macəraları" əsərinin qəhrəmanlarını qarşılaşdırır. Bu əsərdə dul qadın Duqlasın himayəsi altında tərbiyə alan Hek darıxır və bu yaşayış tərzinə alışa bilmir. Bu zaman Tom yeni bir macəra təşkil etmək qərarına gəlir. Müəllif

yenə öz bədii üslubuna və yazı manerasına sadiq qalaraq çoxlu yumoristik vəziyyətlər təsvir edir və bu yolla bəzi ictimai, dini və məişət məsələlərinə öz tənqidini münasibətini bildirir. Ancaq tezliklə məlum olur ki, bu povestdə təsvir olunan Tomla Hek heç də bir-birinə bənzəmir. Tom daha çox oxuduğu kitabların təsiri altında macəralar xülyası ilə yaşayırsa, Hek real həyata can atır, o, sərbəst olmaq, azad yaşamaq istəyir. Tom özünün uydurduğu dünyada yaşayır, Hekin həyatında isə romantik uydurma yoxdur.

Yazıçı zənci obrazını romana gətirməklə irqi ayrıseçkiliyə öz nifrətini bildirir. Oxucu tez-tez əsərdə insan hüquqlarının pozulmasının, şəxsiyyətin alçaldılmasının şahidi olur. Əsərin əvvəlində balaca dindar oğlan olan Heklberri sonda hadisələrə daha ayıq gözlə baxan diribaş bir uşağa çevrilir. Hər iki əsər oxucular üçün maraqlı, olmaqla yanaşı, həm də ibrətamizdir. Oxucuların Mark Tvenin bu və digər əsərləri haqqında fikirlərini və biliklərini yoxlamaq məqsədilə onlar arasında **test sorğuları** təşkil etmək olar. Belə test nümunələrindən birini sizə təqdim edirik:

1. Yazıçı Mark Tven neçənci ildə anadan olmuşdur?

A. 1835* B. 1960 C. 1888 D. 1870

2. Mark Tven hansı xarici ədəbiyyatın nümayəndəsidir?

A. İngiltərə B. Amerika* C. Rusiya D. Kanada

3. Aşağıdakılardan hansı Mark Tvenin əsəridir?

A.“Səfillər” B.“Başsız atlı” C.“Dəfinələr adası” D. “Şəhzadə və dilənçi”*

4. Mark Tvenin hasarı “məharətlə rəngləyən” qəhrəmanı necə adlanır?

A. Tom Soyer* B. Heklberri C. Cim D. Sid

5. “Şahzadə və dilənçi” kimin əsəridir?

A. Mark Tven* B. Viktor Hüqo C. Ernest Heminquey D. Teodor Drayzer

6. Zənci uşaq Cim Mark Tvenin hansı əsərinin obrazıdır?

A. “Tom Soyerin macəraları”

B. “Heklberri Finnin macəraları”*

C. “Şəhzadə və dilənçi”

D. “Tom Soyer xaricdə”

7. Amerika təhsilinin tənqidi Mark Tvenin hansı əsərində öz əksini tapmışdır?

A. “Hannibalda müəmmalı tanış” B. “Şəhzadə və dilənçi” C. “Tom Soyerin macəraları”* D. “Heklberri Finnin macəraları”

8. Mark Tvenin “Heklberri Finnin macəraları”, “Tom Soyerin macəraları” əsərləri hansı janrda yazılmışdır?

A. Povest B. Roman * C. Poema D. Hekayə

9. Mark Tvenin hansı əsərində balaca şahzadənin başına gələn macəralardan bəhs olunur?

A. “Avropada piyada” B. “Hannibalda müəmmalı tanış”

C. “Şəhzadə və dilənçi”* D. “Sadəlövh - Vilson”

10. Mark Tvenin bu il neçə illik yubileyi qeyd olunur?

A. 160 B. 185* C. 190 D. 200

11. Mark Tvenin “Şahzadə və dilənçi” povestinin sujet xətti hansı Azərbaycan dramaturqunun povestini xatırladır?

A.M.F. Axundovun “Aldanmış kəvakib” *

B. S.S.Axundov “Qaraca qız”

C. Ə.Haqverdiyev “Xortdanın cəhənnəm məĸtubları”

D. C.Məmmədquluzadə “Ölülər”

Kitabxanalarda keçirilən maraqlı tədbirlərdən biri **kitab müzakirələri**dir. 185 illik yubileyi münasibətilə Mark Tvenin kitablarının müzakirəsinin keçirilməsi oxucularda maraq doğurar. Belə ki, son illərdə yazıçının əsərləri ölkəmizdə yenidən işıq üzü görmüşdür. Mark Tvenin “Şahzadə və dilənçi” əsərinin müzakirəsini sizə təqdim edirik: Kitab müzakirəsində kitabxanaçı qonaqlara bu əsər haqqında geniş məlumat verir:

**Kitabxanaçı:** “Hörmətli qonaqlar! Bildiyimiz kimi Mark Tven dünya şöhrətli yazıçılardan biridir. Onun bütün kitablarını böyükdən-kiçiyə, hamı sevərək oxuyur. Belə əsərlərdən biri “Şahzadə və dilənçi” povestidir. Bu povestin sujeti öz bədii səciyyəsinə görə daha çox Şərq ədəbiyyatının motivlərini və xalq nağıllarının məzmunlarını xatırladır. Povestdə iki oğlanın həyatından bəhs olunur. Belə ki, povestdə əsl həyatdan xəbərdar olmayan şahzadənin başına gələn macəralar yazıçı tərəfindən olduqca maraqlı qələmə alınmışdır. Elə bu səbəbdən də əsəri həyəcansız oxumaq qeyri-mümkündür. Əsərdə şahzadə adi kəndlinin məşəqqətli, əzablı həyat sürməsinin şahidi olur. Povestin baş qəhrəmanlarından biri Tom Kentidir. Onun atası oğru, anası isə dilənçidir. Bununla belə yazıçı üçün Tom Kentinin obrazı daha doğma və əzizdir. Tom və onun əkiz bacısı sədəqə yığmaqla dolanırlar. Qoca ruhani Toma yazmaq

və oxumaq öyrədir, ona nəhəng məxluqlar və sehrbazlar, krallar və şahzadələr haqqında maraqlı rəvayətlər danışır. Tom əsl şahzadə olmaq arzusu ilə yaşayır, dostları ilə saray oyunları oynayır, özünə şahzadə rolunu seçir, öz davranışları ilə həm uşaqları, həm də böyükləri təəccübləndirir. Günlərin bir günündə dilənçi Tom Kenti, həmyaşıdı, Uels prinsi, ingilis taxt-tacının gələcək vəliəhdi şahzadə Eduard Tyüdor ilə görüşür, onlar bir müddətliyə paltarlarını və rollarını dəyişmək qərarına gəlirlər və bu vaxt o da məlum olur ki, bu uşaqlar bir almanın iki üzü kimi bir-birlərinə oxşayırlar. Beləliklə, bir anın içərisində şahzadə dönüb dilənçi, dilənçi isə dönüb şahzadə olur. Povestin digər qəhrəmanı sadə insanların həyatı haqqında təsəvvürü belə olmayan şahzadədir. O, bir müddət adi xalqın arasında yaşamalı olur. Londonun evsiz-eşiksiz səfillər və dilənçiləri onu tanımadan, kimliyindən asılı olmayaraq ona qayğı göstərir və səmimi münasibət bəsləyirlər. Valideynlərinin nazı ilə böyüyən bu uşağın gözləri qarşısında məhrumiyyətlər, yoxsulluq, dilənçilik həyatı sürən insanların güzəranı canlanır. Bu zaman o, dövlət qanunlarının ədalətsizliyini və sərtliyini hiss edir.

Povestin bir yerində göstərilir ki, şahzadə dilənçi Tomun bacılarına belə xidmətçilərin xidmət göstərməli olduğunun fikrindədir. Ancaq Tom onların xidmətçilərinin olmadığını söyləyir. Onlar arasında belə bir söhbət olur: “ - Elə isə, deyin görüm, - şahzadə Tomdan soruşur, - bəs onlar xidmətçilərsiz necə keçinirlər. Kim onlara yatmazdan əvvəl paltarlarını soyunmağa kömək edir? Səhər yuxudan duranda onların paltarlarını kim geyindirir?” Tom belə cavab verir: “- Heç kim ser. Siz istəyirsiniz ki, onlar paltarlarını soyunub heyvan kimi lüt yatsınlar? - Lüt nə üçün, bəyəm onların bircə dənə donu var?” Yazıçı Tom Kent adlı obrazda bir çox müsbət və xoşagələn xüsusiyyətləri cəmləşdirmişdir. Belə ki, o özünün

düşüncə tərzi, həyata dərindən bələd olması ilə seçilir və sarayın rütbəli şəxslərindən yüksəkdə durur. Bu səbəbdən də kitab hər yaşdan olan oxucu qrupu üçün böyük əhəmiyyətə malikdir. İnanırıq ki, kitab kitabsevərlər tərəfindən rəğbətlə qarşılanacaq.

Gözəl yazıçı olmaqla yanaşı Mark Tven  həm də istedadlı natiq, satirik və müəllim idi. Yazıçı öz həyatında bir çox şey yaşamışdır: romanlarının inanılmaz uğuru və neft maqnatı ilə dostluğundan tutmuş, onun nəşriyyat şirkətinin iflasa uğraması və üç uşağı, eləcə də həyat yoldaşının ölümünə qədər. Bir insanın şəxsi faciəsi nə qədər dərindən olarsa yenə də cəmiyyətin yükünü çəkəcək qədər güclüdürsə, o insan dahidir. Tənqidlərinə görə Mark Tvenin əksər yazıları öldükdən 20-30 il sonra çap edilib, hər şeyə rəğmən, nə tənqidlərindən usanıb, nə də xeyirxah əməllərindən. Yazıçı getdiyi hər yerdə ünsiyyət qurduğu insanlarla yalnız bir şeyin təbliğatını edirdi: insanlıq, qadın-kişi bərabərliyi, irqçiliyə son və təhsil.

**Konfrans:** Kitabxanalarda məktəblilərin iştirakı ilə **"Dünya uşaq ədəbiyyatının görkəmli nümayəndəsi Mark Tven"** adlı **oxucu konfransı** da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Dünya uşaq ədəbiyyatı ilə yaxından maraqlanan, Mark Tvenin yaradıcılığına yaxından bələd olan ədəbiyyatşünasların, yazıçı və şairlərin çıxışları dinlənilir.

Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (**Mark Tvenin yaradıcılığında nağıllar**);

2. Mark Tvenin həyat və yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, ədəbiyyatşünasların, jurnalist, yazıçı və şairlərin çıxışları.;
3.Məktəblilərin Mark Tvenin povestləri əsasında təqdim etdiyi səhnəciklər;
4. Konfransın yekunu.

Uşaqların sevimli kitabxana tədbirlərindən biri **səhərciklər**dir. Mark Tvenin bir-birindən maraqlı əsərlərindən istifadə edərək oxucuların marağına səbəb ola biləcək rəngarəng səhərciklər hazırlayıb onlara təqdim etmək olar. Belə nümunələrdən birini sizə təqdim edirik.

*(Polli xala səhnədə görünür. O, o tərəf, bu tərəfə boylanır və Tomu çağırmağa başlayır.)*

**Polli xala:** Tom, Tom. (Cavab eşidilmir.)

**Polli xala:** Çox qəribədir, görəsən bu uşaq harada itib-batıb!... To-o- om.(üzünü qonaqlara tutaraq) Ay uşaqlar, siz bizim Tomu görməmisiniz?

*(Uşaqlar başlarını yelləyərək onu görmədiklərini bildirirlər.)*

**Polli xala:** To-o-om haradasan?

*(Birdən arxada səslər eşidilir və Polli xala qaçmaq istəyən Tomu yaxalayır.)*

**Polli xala:** De görüm, sən anbarda nə edirdin? Bir əllərinə, ağzına bax. Bu nədir belə?

**Tom:** Bilmirəm, xala.

**Polli xala:** Amma mən bilirəm. Bu mürəbbədir. Yüz dəfə sənə demişəm ki, mürəbbəyə əl vurma. Bir burada oturan uşaqlara bax. Heç olmasa onlardan utan. Mən əminəm ki, bu uşaqların heç biri öz böyüklərinin sözündən çıxmır. Elə deyilmi uşaqlar?

*(Uşaqlar başları ilə təsdiqləyirlər.)*

**Polli xala:** Bu gözəl uşaqlar bura səninlə və yoldaşlarınla görüşməyə gəliblər. Sənsə qaçıb anbardan mürəbbə oğurlayırsan.

*(Polli xala bu sözləri deyir və səhnəni tərk edir.)*

**Tom:** Bəs Cimlə Hek və Sid haradadır? Uşaqlar, bir halda ki, siz mənimlə və dostlarımla görüşə gəlmisiniz, onda gəlin birlikdə Heki, Cimi və Sidi çağıraq.

**Hamı:** Hek! Cim! Sid!

*(Hek, Sid və Cim səhnəyə çıxırlar.)*

**Hek:** Uşaqlar, eşitdik ki, bizimlə görüşə gəlmisiniz, çox sevindik. Yəqin xəbəriniz var ki, biz dünyaşöhrətli yazıçı Mark Tvenin yaratdığı qəhrəmanlarıq.

**Cim:** Dostlar, siz, Mark Tveni tanıyırsınızmı?

*(Uşaqlar "Bəli" cavabını verirlər.)*

**Hek:** Onda gəlin sizinlə kiçik bir oyun keçirək. Biz sizə yazıçının həyatı, onun yaradıcılığı ilə bağlı suallar verək. Siz də onları cavablandırın. Düzgün cavab verənlərə Mark Tvenin birbirindən maraqlı kitablarını hədiyyə edəcəyik.

**Tom:** Sualları mən özüm verəcəyəm.

**Sid:** Yox, Tom, cığallıq etmə. Sualları növbə ilə uşaqlara təqdim edəcəyik.

**Tom:** Yaxşı, onda ilk sualı uşaqlara mən verəcəyəm. Uşaqlar, deyin görüm Mark Tvenin ən yaxşı, ən qoçaq, ən sevimli əsər qəhrəmanı kimdir?

*(Uşaqlar xorla: Tooom)*

**Tom:** Siz yaman ağıllı, savadlı uşaqlarsınız. (O üzünü Sid, Hek və Cimə tutur və çiyinlərini çəkir.) Düz sözə nə deyəsən.

**Hek:** Tom, sən nə yaman təvazökar oğlansan. İkinci sualı da dostlara mən verəcəyəm. Uşaqlar, tapın görüm mən Mark Tvenin hansı əsərinin qəhrəmanıyam?

**Cavab:** "Heklberri Finnin macəraları"

**Sid:**İndi isə deyin görək Mark Tvenin əkiz qardaşların həyatından bəhs edən əsəri necə adlanır?

**Cavab:** "Şəhzadə və dilənçi"

*Uşaqlar bütün suallara cavab verdikdən sonra onlara kitab hədiyyə olunur.*

**Hek:** Dostlar, sizinlə söhbət maraqlı idi. Ancaq çox təəssüf ki, sağollaşmaq vaxtı yetişdi.

**Tom:** Sonda sizinlə sağollaşırıq və sizi "Tom Soyerin macəraları" adlı cizgi filminə baxmağa dəvət edirik.

Sonda xarici kinomotoqrafların çəkdiyi, lakin azərbaycan dilinə dublyaj olunmuş "Tom Soyerin macəraları" adlı cizgi filmi uşaqlara təqdim olunur.

Əminliklə demək olar ki, Mark Tven həyata xüsusi yanaşma tərzi ilə seçilən qeyri-adi insan idi. Yəqin ki məhz buna görə onun fikirləri hələ də sitat olaraq istifadə olunur. Mark Tvendən bir neçə məsləhəti diqqətinizə çatdırıram:

**1. Özünlə yola getməyi bacar.**

"Özündən narazı olan insan heç vaxt həyatdan razı ola bilməz".

Əgər sən özündən, öz davranış və hərəkətlərindən narazısansa, onda çox ehtimal ki daima narahatçılıq hissindən əziyyət çəkəcəksən. Özünə qiymət verirsənsə, həmişə rahat davranacaq, həqiqətən də istədiyin işi həyata keçirmək üçün daxili sərbəstliyə malik olacaqsan. Əgər sənin daxili sərbəstliyin yoxdursa, onda şəxsi inkişafla bağlı çətinliklərin olacaq. Sən hətta şəxsi inkişafa nail olmaq üçün üsullar fikirləşib tapsan da, daima daxili müqavimət hissi ilə üz-üzə olacaqsan. Məhz buna görə də qoyduğun məqsədə nail ola bilmirsən. Həqiqətən də istədiyin kimi insan olmaq üçün özünə imkan ver. Başqa insanların səni tərifləməsini gözləmə. Nailiyyətlərə görə özünü təqdir et. Daxili baryeri aş və özünə ziyan verəcək hərəkətlərə yol vermə. Bu, asan məsələ deyil, onun öhdəsindən gəlmək üçün vaxt tələb olunacaq.

**2. Ola bilər ki, sən özünü fikrən çərçivəyə salırsan.**

“Fikirləşdiklərin sənin yaşını müəyyən edir. Əgər onun haqda fikirləşmirsənsə, o mövcud deyil”. Əksər hallarda səni çərçivəyə salan şeylər öz beynində mövcud olanlardı. Məsələn, biz fikirləşə bilərik ki, boyumuzun qısalığı, yaşımızın uyğun olmaması və ya başımızda tükün az olması ətrafımızdakı insanları qıcıqlandırır. Lakin onlar o vaxt mövcud olur ki, biz onların mövcudluğu haqqında fikirləşirik. Bu zaman sən narahat olmağa və insanların sənin haqda nə fikirləşdiyini düşünməyə başlayırsan. İnsanlar da bunu hiss edərək buna pis reaksiya verə bilərlər. Digər tərəfdən, əgər sənin vecinə olmasa, əmin ol ki, ətrafdakı insanların da vecinə olmayacaq.

**3. Rahat ol və əylən.**

“Yumor bəşəriyyətə verilmiş ən böyük hədiyyədir”.

“Hər şey gülüşün qarşısında acizdir”.

Yumor və gülüş heyranedici vasitədir. Yumor istənilən ciddi bir situasiyanı əyləncəyə çevirə bilər. Onlar hər zaman və hər yerdə əhval-ruhiyyəni qaldıra bilər. Əhval yaxşılaşdıqda isə işləmək də rahat olur, ona görə ki, bu halda beyin pis emosiyalarla yüklənmir. Sən rahatlaşdıqda, problemləri həll etmək və onları aradan qaldırmaq da asan olur.

**4. Qəzəbi kənarlaşdır.**

“Sirkə nə qədər tünd olsa, öz qabını çatladar”.

Qəzəb əksər hallarda mənasızdır. O, vəziyyətin nəzarətdən çıxmasına səbəb ola bilər. Yadda saxla ki, qəzəb sənə daha dağıdıcı təsir edir, nəinki hirsləndiyin insana. Başa düşməyə çalış ki, əgər daima kiməsə acıqlanırsansa, onda bu zaman sən daha çox özünə ziyan vurursan. Həmin insan isə səni bürüyən qəzəb hissindən heç şübhələnməyə də bilər. Ona görə də həyatı daha da xoşagələn etmək üçün sənə məsləhətim budur ki, həmin insanla danışaraq yaranan münaqişəni həll et və ya bu qəzəbdən tez bir zamanda xilas ol.

**5. Elə düşünmə ki, hamı sənə borcludur.**

“Dünyanın sənə borclu olduğunu heç kəsə bəyan etmə, çünki onun sənə heç bir borcu yoxdur. O, səndən əvvəl də mövcud olub”.

Uşaq vaxtı valideynlərimiz bizə çox şey verə bilir. Buna görə də böyüdükdə, bizdə elə bir hiss yarana bilər ki, kimsə bizə nə isə borcludur. Sənə elə gələ bilər ki, dünya sənə istədiyin hər şeyi verməlidir və ya onun sənə borcu var. Bu səbəbdən sən çox vaxt əsəbləşəcəksən və qanın qaralacaq. Axı dünya sənə istədiyin hər şeyi verə bilməz. Başa düşməlisən ki, sənin həyatın yalnız sənin öz əlindədir.

**6. Öz istəyinə görə nə isə edirsənsə, onda başqalarının mənfi reaksiyasına hazır ol.**

“Yeni ideyaları olan insan onun ideyaları uğur qazanmayana qədər qəribə adam hesab olunacaq”.

Əvvəl etdiyin bir şeyi başqa formada etməyə başlayanda insanlar buna müxtəlif cür reaksiya verə bilər. Kiminsə xoşuna gələcək. Kiminsə vecinə olmayacaq. Kimsə çaşqınlıq içində olacaq və kiminsə xoşuna gəlməyəcək və o əngəl törətməyə başlayacaq. İnsanların verdiyi reaksiya sizi deyil, onları əks etdirir. Mənə elə gəlir ki, onlar sənin fikirləşdiyin qədər pis reaksiya verməyəcəklər. Və ya heç olmasa onlar gec-tez səni rahat buraxacaq və öz işləri ilə məşğul olacaqlar. Əvvəldə dediyim kimi, başqa insanların sənin haqda nə dedikləri və fikirləşdikləri yalnız sənin öz beynində qurduğun fantaziya və maneələr ola bilər. Əmin ol ki, bunlar sənin məhsuldar və səmərəli qərar verməyinə əngəl olacaq.

**7. İstədiyin şəkildə aksentləri vurğula.**

“Bütün problemləri başından at. Qulaqlarını bağla, problemlər haqda fikirlərdən uzaq ol və ya istənilən üsullarla onlardan canını qurtar”.

İlk diqqət yetirdiyin şey çox vaxt baş verəcəkləri müəyyən edir. Sən problemlərin arasında itib bata bilər və özünü cəfakeş və qurban obrazında qələmə verə bilərsən. Lakin nə isə müsbət bir şeyi taparaq, onu vurğulamaqla həyatı daha dözülə bilən etmək olar. Sən özündən asılı olmadan bütün fikrini daha faydalı nə isə bir şeyə deyil, problemlərə yönəldə bilərsən. Amma sən həm də öz fikirlərinə nəzarət etməyi öyrənə bilərsən və bununla da onları yenidən öz istədiyin istiqamətə yönləndirmək getdikcə daha asan olacaq.

**8. Özünü necə yaxşı hiss etmək barəsində çox da fikirləşmə.**

“Özünü ruhlandırmağın ən yaxşı üsulu başqasını ruhlandırmağa cəhd etməkdir”.

Bu, müəyyən mənada məntiqə zidd ola bilər. Özünü yaxşı hiss etməyin ən yaxşı üsulu başqasının özünü yaxşı hiss etməsini təmin etmək və ya ona nə iləsə kömək etməkdir. Sən kiməsə kömək edirsən və buna görə də sən və kömək etdiyin insan özünü xoşbəxt hiss edir. Gün gələr, o da sənə öz kömək əlini uzadar, çünki insanlar borclu qalmağı xoşlamırlar. Bununla da siz bir-birinizə kömək etmiş olursunuz, hər ikiniz özünüzü yaxşı hiss edirsiniz. Belə müsbət hisslər başqa insanlara da ötürülür və buna görə də sən dostlarının sənə göstərdiyi yardımdan ilhamlanaraq yenidən yaxşılıq etməyə başlayacaqsan. Beləliklə, "müsbət spiral" böyüməyə və davam etməyə başlayacaq.

**9. İstədiyini et.**

"20 il sonra sən etdiklərinə görə deyil, etmədiklərinə görə təəssüflənəcəksən. Ona görə də lövbəri qaldır və sakit limandan uzaqlaş. Yelkənin arxasından əsən küləyi yaxala. Arzu tut. Açılışlar et".

Mark Tven dünya şöhrətli bir insan olduğu üçün onun həyatında baş verən maraqlı hadisələr yəqin ki, yazıçının oxucuları üçün maraqlı olar. Bunu nəzərə alaraq kitabxanaçılar tərəfindən oxuculara nəql edilməsi üçün yazıçının həyatı ilə bağlı bir neçə maraqlı və gülməli hadisəni sizə təqdim edirik.

Mark Tven redaktor işlədiyi zaman onun yanına bir yazıçı gəlir. Onun gözünün altında ağır zərbənin təsirindən yaranan böyük bir ləkə vardı. Mark Tven kişinin yazılarını diqqətlə nəzərdən keçirəndən sonra başını qaldırdı, kişinin göyərən gözünə baxdı və dedi:

- Ah ser, mən sizi gözəl başa düşürəm, yəqin gözünüz bərk ağrıdır. Ancaq deyin görüm siz öz yazılarınızı mənim yanıma gətirməzdən əvvəl hansı redaksiyaya müraciət etmişdiniz ki?

***

Bir dəfə Mark Tven anonim bir məktub alır. Hansı ki, orada cəmi bir söz yazılmışdı: "Donuz". Ertəsi gün yazıçı öz qəzetində həmin məktuba belə bir cavab ünvanladı: - Adətən mən imzasız məktublar alıram. Ancaq dünən ilk dəfə olaraq məktubsuz imza almışam.

***

Öz qəbul günlərinin birində Mark Tven bir qadınla söhbət edirdi. Yazıçının əhval-ruhiyyəsi çox yüksək idi. O, müsahibinə belə bir komplement söylədi: - Siz çox möhtəşəmsiniz. Belə bir komplementdən fərəhlənən qadın cavab verdi: - Mən sizin bu komplementinizə qarşılıq heç bir söz tapa bilmirəm. Yazıçı gülərək: - Onda siz də mənim kimi edin. Yalan danışın.

Yazıçının başına gələn maraqlı hadisələrdən başqa onun **tərbiyəvi aforizmləri** də oxucular üçün faydalı ola bilər. Belə aforizmlərdən bir neçəsini sizə təqdim edirik.

**Mark Tvenin aforizmə çevrilmiş fikirləri:**

1. Xeyirxahlıq karların eşidə və korların görə bildiyi bir dildir.
2. Öz əhvalını qaldırmağın ən yaxşı yolu başqa birisini də sevindirməyi bacarmaqdır.
3. Yaxşı dostlar, yaxşı kitablar və rahat vicdan! Budur ideal həyat.
4. Nə zaman özünü əksəriyyətin arasında gördün, deməli, dayanıb düşünmək zamanı gəlmişdir.

5. Doğrunu söyləyən insanın nəyisə xatırlaması üçün zamana ehtiyacı yoxdur.
6. Təbii ki, bir gün baş verə bilməyəcək heç nə yoxdur.
7. İnsanın xarakteri danışarkən vərdiş halını almış, tez-tez işlətdiyi sifətlərdən öyrənilə bilər.
8. İrəliyə getmənin sirri "başlamaqdan" başlayır.
9. Bağışlamaq - bənövşənin onu əzən dabana xoş qoxu yayması kimi bir hissdir.
10. Dürüst olun, bu insanların könlünü xoş edər, bəzilərini isə təəccübləndirər.
11. Cəsarət qorxuya müqavimət göstərməkdir, qorxunu idarə etməkdir, qorxusuzluq demək deyil.
12. Ölkənə qarşı həmişə sadiq olmalısan, hökumətə qarşı isə layiq olduğu təqdirdə.
13. İnsanın yeganə təsirli silahı var, o da gülüşdür.
14. Üzdəki qırışlar gülüşlərdən qalan izlərin göstəricisi olmalıdır.
15. Ən maraqlı məlumatlar uşaqların dilindən gəlir, bütün bildiklərini birnəfəsə danışıb sonra susurlar.
16. Sevgi qazanmaq istəyəndə tilovunuza ürək qoyun, beyin yox.
17. Maraqlı burasıdır ki, bütün dünyada fiziki cəsarət elə adi hal alıb ki, mənəvi cəsarət isə nadir tapılır.
18. Yumor bəşəriyyətin ən böyük xeyir-duasıdır.
19. Kitab oxumaq istəməyən adam kitab oxumağı bacarmayan insandan heç nəyi ilə üstün deyil.
20. Ən gözəl geyim insanın öz dərisidir, ancaq təbii ki, cəmiyyət bizdən bundan daha artıq bir şey tələb edir.
21. Əsəbisənsə, dördə qədər say, çox əsəbisənsə söy.
22. Eybi yox, geyimində diqqətsiz ola bilərsən, təki səliqəli vicdanın olsun.
23. İnsanda hər şey ürək parçalayıcıdır. Yumorun sirli mahiyyəti sevincdə deyil, kədərdədir. Cənnətdə yumor yoxdur.

24. Bir şeyi daha çox qadağa etdikcə, o daha da çox məhşurlaşar.
25. Kədəri tək də yaşamaq olar, sevinci bütünlüklə yaşamaq üçün isə onu kiminləsə bölməlisən.
26. Biz hamımız daxilimizdə eyniyik.
27. Mən insanları nə irq, nə sinif, nə dininə görə ayırıram.Tək əhəmiyyət verdiyim şey insanın insan olmasıdır və bu mənim üçün kifayətdir...
28. İctimai rəy hər şeydən üstün yeganə dəyərli tənqiddir.
29. Fəxri adlara layiq olub onlara sahiblənməmək, layiq olmadığı halda sahiblənməkdən daha yaxşıdır.
30. İnsanı karıxdırmağın ən yaxşı yolu ona həqiqəti söyləməkdir.
31. Bizə hörmət etməyəndə inciyirik, əslində isə ürəyinin dərinliyində heç kim özünə hörmət qoymur.
32. Deməyə söz tapmayanda həqiqəti söylə.
33. İnsan da Ay kimidir, onun da heç kimə göstərmədiyi qaranlıq üzü var.
34. Bank işçisi sənə günəşli havada öz çətirini verən və yağış yağmağa başlayan kimi onu geri alan kəsdir.
35. İstər 20 yaşı olsun, istər 80, öyrənməkdən imtina edən insan yaşlıdır. Öyrənməyi davam edən istənilən şəxs isə gənc qalır. Edə biləcəyin ən böyük şey odur ki, ağlını həmişə gənc saxlayasan.
36. İlluziyalarınla vidalaşma. Ola bilsin ki, onlarsız da mövcud olacaqsan, ancaq yaşamayacaqsan.
37. Əgər bütün insanlar bir-birləri haqda nə dediklərini bilsəydilər, dünyada cəmi dörd nəfər dost tapmaq olardı.
39. Elm qədər heyrətamiz bir şey yoxdur. Mənasız bir faktın təxminindən dolğun bir cavab əldə edə bilirsən.
40.Qadın istənilən peşənin fəxridir və bizim cəvahiratımızdır. Onlar cəmiyyətin bəzəyi və dünyanın xəzinəsidir.
41.Hər günə həyatının ən gözəl günü olması üçün şans ver.
42. Həyatımda bir çox problem vardı və çoxu əsla var olmadı.

43.Yağış duasına çıxmadan əvvəl meteorologiyanın qeydlərini qarışdırmaq hər vaxt faydalıdır.
44. Dostluq qüvvətli bir bağdır. Pula ehtiyac olanda müraciət edilməzsə, ömür boyu sürər.
45. Təhsilin edə bilməyəcəyi heç bir şey yoxdur. Heç bir şey onun təsir sahəsinin xaricində qala bilməz. Pis əxlaqları yaxşıya çevirə bilər; pis qanunları yuyar və yerinə yenilərini qoyar; insanları mələklər səviyyəsinə çıxara bilər.
46. İnsan 80 yaşında doğulub 18 yaşına qədər yavaş yavaş yaşasa daha xoşbəxt olardı.
47. Xəyallarınızı itirdiyiniz an həyatınız sona çatdı deməkdir.
48. Başımızı dərdə salan pis şeylərin qaynağında bilmədiyimiz şeylər deyil, başımıza əsla gəlməyəcəyindən əmin olduqlarımız vardır.
49. Cənnət ilə cəhənnəmlə əlaqədar irəli geri danışmaq istəmirəm, çünki hər ikisində də dostlarım var.
50. Həyatda ehtiyac olunanlar bilməməzlik və özünə inamdır və o zaman müvəffəqiyyət şübhəsizdir.
51. Sabah, geridə qalan həyatımızın ilk günüdür.
52. Əxlaq mövzusunda ən əhəmiyyətli dərslər kitablardan deyil, yaşanan təcrübələrdən alınar.
53. Məni yarı yolda buraxdığını sanıb, o yolda qaçarkən təngnəfəs qalanlar.. Yolun sonunda sizi gözləyirəm..
54. Əgər insanı, insan yaratmış olsaydı, o öz yaratdığının tutduğu əməllərdən utanardı.
55. İnsanın özünü cəsarətləndirməyin ən yaxşı yolu, başqasını cəsarətləndirməkdir.

**Ədəbi bədii gecə**

Ədəbi-bədii gecə oxucular tərəfindən ən çox sevilən tədbirlərdəndir. Mark Tvenin yaradıcılığını oxuculara daha yaxından tanıtmaq məqsədilə uşaq kitabxanalarında ədəbi-bədii gecələrin keçirilməsi məqsədəuyğundur. Bu tədbirə həm kitabxanaçılar, həm də oxucular həvəslə hazırlaşırlar.

Ədəbi-bədii gecənin keçirilməsində əsas məqsəd oxuculara yazıçının həyat və yaradıcılığı haqqında məlumat verməklə bərabər, həm də onun qələmə aldığı əsərləri təbliğ etməkdir. Ədəbi-bədii gecəni **“Mark Tven və onun ölməz əsərləri”** adlandırmaq olar. Kitabxanaçılara kömək məqsədilə ədəbi-bədii gecənin ssenarisini veririk.

**I Aparıcı:** Əziz məktəbli kitabsevərlər! Dünya şöhrətli, böyüklərin, kiçiklərin sevə-sevə əsərlərini oxuduğu böyük klassik Mark Tvenin yubileyində hər birinizi xoş gördük!

**II Aparıcı:**19-cu əsrin sonu-20-ci əsrin əvvəllərində Amerika ədəbiyyatı realizm cərəyanının qalxması ilə müşahidə olunurdu. Tədricən ABŞ-ın kapitalist cəmiyyətinin sosial ziddiyyətlərə səbəb olduğunu, insanların yoxsulluq uçurumuna yuvarlandığını, sosial faciələri yazılarında əks etdirən müəlliflər meydana çıxmaqda idi.

**I Aparıcı:** Dövrün ən məhşur realist yazarları arasında Mark Tvenin özünəməxsus yeri vardı. Tven Amerika ədəbiyyatının əvəzedilməz yumoristi və satiristi idi. O, inanırdı ki, heç nə gülüşün hücumlarına tab gətirə bilməz. Oynaq və qeyzli şəkildə qurulmuş kinayəli cümlələrini demək olar ki, bütün əsərlərində, mühazirələrində və esselərində görə bilərik. Onlar kimi gəldi gülüdürə və düşündürə bilirdi, ancaq maraqlı burasıdır ki, Tvenin dilinin kəsəri mühazirələrində iştirak edən dinləyiciləri və ya oxucularını incitmirdi, əksinə, insanlar get-gedə onu daha da çox sevir və ehtiyac duyurdular.

**II Aparıcı:** Mark Tveni tez-tez məktəblərdə, məzun günlərində, kolleclərdə və ya universitetlərdə şagird və tələbələrin əhatəsində görmək olurdu; gənclərin qarşısında nitq söyləmək onun adi missiyasına çevrilmişdi. Onun mühazirələrinin əsas məqsədi yaxşıya doğru dəyişikliklərin baş

verəcəyini dinləyicilərinə ötürmək idi, bu məqsədlə üzünü həmişə gənclərə, gələcəyin savadlı, güclü və mədəni yeniyetmələrdən asılı olduğunu düşünürdü. Bu səbəbdən özü ilə uşaqlar arasında çox asan yaranan ünsiyyət qurmuşdu, ona yaxınlaşmaq, onunla söhbət etmək, məktublar yazmaq hər bir kiçik yaşlı ABŞ vətəndaşı üçün münasib idi.

**I Aparıcı:** Yazıları, demək olar ki, bütünlüklə avtobioqrafik idi. Uşaqkən qarşılaşdığı hadisələr onda dərin izlər buraxırdı və bu hadisələr gələcəkdə uşaqların mənəvi dünyalarının realistik formalaşmasına xidmət edəcəkdi. Bir şeyi əldə etmək üçün onun yolunda çalışmaq lazım olduğunu, öz şəxsi istəklərinə görə kimlərdənsə, nələrdənsə sui-istifadə etməməyi vicdan məsələsi bilirdi. İstənilən uğura çatmaq üçün onun uğrunda çalışmaq lazım olduğunu, mənasız mövhumatdan uzaq durmağı məsləhət bilirdi.

**II Aparıcı:** Mark Tvenin yaradıcılığını üç dövrə bölmək olar. Onun bir yazıçı kimi formalaşıb ümumxalq məhəbbəti qazanması yaradıcılığının birinci dövrünə təsadüf etsə də, yazıçıya əsl şöhrəti ikinci dövrdə XIX əsrin 70-80-ci illərində qələmə aldığı iri həcmli əsərləri gətirmişdir. “Tom Soyyerin macəraları” (1876), “Avara adam xaricdə” (1880), “Şahzadə və dilənçi” (1882) və “Heklberri Finnin macəraları” (1885) əsərlərində müəllif hadisələri incə, zərif yumor hissi ilə qələmə almış böyük oxucu məhəbbəti qazanmışdır.

**I Aparıcı:** Mark Tven povestlərində ucuz, bayağı komik effekt axtarmır, yalnız cəmiyyət üçün xeyirli olan ciddi gülüşə üstünlük verirdi. Yazıçını öz sələflərindən və müasirlərindən fərqləndirən əsas cəhətlərdən biri də budur. Mark Tvenin dünya ədəbiyyatı qarşısındakı xidmətlərinin böyüklüyü bir də orasındadır ki, onun ifşaedici, dağıdıcı satirası fövqəladə

gərginliyi ilə seçilən tarixi mərhələdə yaranırdı. Yazıçının biganə qaldığı bircə dənə də olsun problem yox idi.

**II Aparıcı:** Nobel mükafatı laureatı Ernest Heminquey Mark Tven haqqında bu fikirləri söyləyirdi: "Bütün müasir Amerika ədəbiyyatı Mark Tvenin "Haklberri Finin Macəraları" adlı bir kitabından başlayır. Əgər onu oxuyursansa, zənci Cimin oğlanlardan oğurlandığı yerdə dayanmalısan. Bu əsl sonluqdur. Ancaq bu, bizim əlimizdəki ən yaxşı kitabdır. Bütün Amerika yazıçılığı oradan yaranır. Ondan əvvəl heç nə yox idi. O vaxtdan bəri də onun kimi yaxşısı, hələ ki, olmayıb".

**I Aparıcı:** Bu əsər haqda çox məhşurlardan sitatlar gətirmək olardı, ancaq Heminqueyin fikri onların hamısını birləşdirir. Niyə məhz "Haklberi Finin Macəraları"?

Əvvəlcə, əsərin qəhrəmanlarından olan Haklberi Finin prototipindən danışaq. Tven əvvəllər etiraf etməsə də, sonralar avtobioqrafiyasında yazırdı ki, Haklberi Fin onun uşaqlıq dostu Tom Blenkenşipdir. Tven Tomu necə vardısa, elə də təsvir etmişdi, o yazırdı: "Tom nəcib adətləri olmayan, üstü-başı pinti gəzən və hər zaman aclıqdan əziyyət çəkirdi, ancaq o, qəsəbəmizdəki əsl azad insan idi, buna görə də həmişə xoşbəxt görkəmi vardı. Bizim hamımızın ona paxıllığı tuturdu". Tomun böyük qardaşı nökərçilikdən qaçan qul zənciyə qaçıb canını qurtarmaqda kömək etmişdi.

**II Aparıcı:** Amerikanın Cənubunda hələ də quldarlığın hökm sürdüyü yerdə bu hərəkət ağ adam üçün ləyaqətsizlik hesab oluna bilərdi, zənci üçün isə onu tapan adama yaxşı pul mükafatı düşürdü, hansı ki, yoxsul Blenkenşiplər ailəsi üçün heç də pis olmazdı. Ancaq bunlara baxmayaraq, təmiz uşaq vicdanı pul mükafatını heçə sayaraq zənciyə qaçmağa şərait yaratmışdı. Görünür, bu hadisə Semin saf uşaq qəlbində özünə

yer tapmış və gələcəkdə Mark Tven təxəllüsü ilə uşaqlığında yaşadığı və şahidi olduğu hadisələri qələmə almağa vəsilə olacaqdı.

**I Aparıcı:** Uşaqların dünyasına məxsus səmimi niyyətlərini olduğu kimi onların özlərinə çatdırmaq istəyən yazıçı Haklberinin dili ilə onlarda vicdan, düzgünlük, sözündə dürüstlük və yoldaşlıq kimi əxlaqi dəyərləri oyatmaq istəyir. Əsərin əsas mahiyyəti budur: insan insanı qul kimi görməməli, valideyinlər övladlarını tənbeh etmək və ya cəza vermək məqsədilə mənəvi və fiziki əzməməlidirlər, insanların rənglərinin, inanclarının və maddi durumlarının fərqli olması onlar arasında yoldaşlığın yaranmasına əngəl olmamalıdır. Burada həmçinin dini inancdan irəli gələn mövhumat, böyüklərin fırıldaqçı əməlləri də uşaqların dünyaya baxış pəncərəsindən ələ salınır, pislənir. Əsər 10- 12 yaşlı uşaqlar üçün əvəzedilməz əxlaqi dəyərə malikdir, uşaqların mənəvi dünyasına yaxşı mənada nüfuz edə bilir. Onu məhz bu səbəbdən dünya uşaq ədəbiyyatı incisi hesab edirlər.

**I Aparıcı:** Mark Tvenin uşaqlığının keçdiyi dogma Hannibal qəsəbəsindəki təpənin üstündə bir - birilə şirin söhbət edən iki oğlanın heykəli uzaqdan diqqəti cəlb edir. Bu, Tvenin qəhrəmanları Tom və Heklberrinin heykəlidir. Onlar sanki şirin-şirin söhbət edə-edə ayaqlarının altından axan Missisipi çayına tərəf addımlayırlar. Neçə illər bundan qabaq Hannibal qəsəbəsində ayaq açmış Tom və Heklberri indi də yol gedir, dünyanı dolaşır, qələmindən çıxdıqları məşhur yazıçının, satira və yumar ustasının – dünya ədəbiyyatının korifeylərindən olan Mark Tvenin şöhrətini, xoş sorağını dönə-dönə bütün yer üzünə yayırlar…

## Ədəbiyyat siyahısı

Internetdə: www.google.az

***Kitablar***

1. Mark Tven. Seçilmiş əsərləri. B.: "Öndər nəşriyyat", 2005, 464 səh.

2. Mark Tven. Seçilmiş əsərləri. – B.: "Şərq-Qərb", 2009, 512 s.

3. Mark Tven. Şahzadə və dilənçi, Oskar Uayld. Nağıllar. B.: "Öndər nəşriyyat", 2005, 336 s.

**Uşaqları sevindirən, böyükləri düşündürən – Mark Tven**

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 08
Çapa imzalanmışdır: 11.03.2020
Tirajı:100
Pulsuz